# Sözlə fəth edilən zirvə



O, alim adını qazanmaq üçün bir insan ömrünü girov qoyub. Yaşadığı illərin rəngi, məna çalarları təkcə özünə agahdı...

Yüz yazıla, min deyilə, xeyri yoxdu. Onun keşməkeşli ömür yolunu nə söz, nə təsvir özündə tam ehtiva edə bilməz.

Onu sözün və dilin keşiyində duran əsgərə də oxşatmaq olar. Millətin dilinin, sözünün, ruhunun sərhədlərini göz bəbəyitək qoruyan namuslu əsgərə...

Amma o özü heç kəsə oxşamır! Bənzəməyin, təqlidin fərqinə varmır... Yalnız bircə amalı var: "Həyatın gələcəyi əbədi yaşamaq üçün elm öyrənənlərin əlindədir".

Mən onu cəmi bir ildən bir az artıqdır ki, tanıyıram. Amma ömür yolunu vərəqlədikcə, haqqında danışılan söz-söhbəti dinlədikcə gözümün önündə halallıq, mərdlik, ədalət və səxavət rəmzi olan bir insan canlanır.

Ulu Kəngərli yurdunun sinəsinə qızılgül kimi sancılan Xok kəndinin geniş darvazasından əsrlər boyu kimlər keçməyib, kimlər adlamayıb?.. Axı, torpaq da insan kimidir, - deyirlər...

"Qızmar yay dövrünün sonu, qızılı payızın ilk ayının ilk günündə bar-bərəkət rəmzi sayılan bu kənddə dünyaya göz açmışam. İndi 70 yaşımın ucalığından baxıb yenə də bu yurdu ruhumun əbədi beşiyi sanıram... Lap yeniyetmə yaşlarından səyahətə çıxmaq, vətən torpağını qarış-qarış gəzib, onun bütün gözəlliyini göz yaddaşıma köçürmək arzusunda olmuşam. Bəlkə elə ona görə də mənim ömür yolum ucu-bucağı görünməyən, nəhayətsiz yollardan başlayır... bir gün müəlliməm, bir gün alim. Bir gün isə dilçi-tərcüməçi".

Ötən əsrin 46-cı ilində Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Xok kəndində dünyaya gələn Möhsün Zellabdin oğlu Nağısoylu (əvvəlki soyadı Nağıyev) şərəfli ömrünü yaşayır. Möhsün müəllim Xoku özü üçün rəsmi rəmz seçməsə də, Kəngərli onun üçün əbədi inanc yeridir.

Keşməkeşli ömür yolunu özündən yaxşı heç kəs xatırlamır.

"Orta məktəbdə oxuyarkən bir neçə ictimai iş tapşırdılar mənə: divar qəzetinin buraxılışı, komsomol komitəsinin katibi, həmkarlar təşkilatının sədri və sair, və ilaxır. Bircə yadımda qalan odur ki, əlavə işlər dərslərimə mane olmurdu.

Məktəbi əla qiymətlərlə bitirdikdən sonra universitet həyatım başladı. Çox tanınmış, görkəmli alim və pedaqoqlardan dərs aldım. Bu təhsil ocağını bitirdikdən sonra çox yerlərdə çalışdım. Lakin 1972-ci ildən əsas iş yerim Əlyazmalar İnstitutu oldu".

Böyük alimlərdən söz açmaq üçün şəxsi tanışlıq bir o qədər vacib deyil. Onların həyatı və taleyi açıq kitabdır. İntəhası bu kitabı səhifə-səhifə, sətir-sətir dərindən-dərinə oxumaq və təmkinlə təhlil etmək bacarığı gərəkdir. Möhsün Nağısoylu da, məhz bu alimlərdəndir.

Haqqında söz açdığımız böyük alim 1963-cü ildə indiki Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin fars dili və ədəbiyyatı şöbəsinə daxil olub. 1967-ci ildə V kursda oxuyarkən Əfqanıstana fars dili tərcüməçisi qismində ezam olunub. 1970-ci ildə ezamiyyətdən qayıdaraq təhsilini davam etdirib və 1971-ci ildə universiteti fərlənmə diplomu ilə bitirərək Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun aspiranturasına (qiyabi) daxil olub. 1972-ci ildən 2015-ci ilədək, indiki AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda işləyib. Bu müddətdə baş laborant, kiçik elmi işçi, böyük elmi işçi və 1988-ci ildən şöbə müdiri vəzifəsində çalışıb. Hazırda AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktorudur.

İnsan var ki, vəzifəsi yüksəldikcə özü xalqdan uzaqlaşır. bununla da xalqın nəzərində kiçilir. İnsan da var ki, vəzifəsi böyüdükcə, xalqa enir, bununla da ətrafdakıların nəzərində doğmalaşır, yüksəlir. Möhsün müəllim kimi.

Möhsün müəllim nə qədər mürəkkəb, təcili görülməli iş olur-olsun, ona müraciət edənin kimliyindən asılı olmayaraq həmin şəxsi gülər üzlə qarşılayacaq, imkanı çatan yerdə kömək edəcək. Kömək etmək imkanı olmasa da onu hörmətlə, ləyaqətlə yola salacaq.

Məndən soruşsalar Möhsün müəllimin bir insan kimi ən ümdə xüsusiyyəti nədir? Tərəddüdsüz deyərdim: mülayimliyi! Mülayimlik isə daxili mədəniyyətdən və təvazökarlıqdan doğur.

Möhsüm müəllim 1979-cu ildə "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (paleoqrafiya, orfoqrafiya və tərcümə məsələləri)" mövzusunda namizədlik, 1994-cü ildə isə "XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri (mətnşünaslıq, tərcümə və dil məsələləri)" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. 2012-ci ildə professor diplomunu alıb, 2014-cü ildə isə AMEA-nın müxbir üzvü seçilib.

M.Nağısoylunun elmi tədqiqatlarının nəticələri indiyədək çap etdirdiyi 31 kitabında, o cümlədən 8 monoqrafiyada, 16 tərtibat və tərcümə işində, 2 lüğətdə, 5 dərs vəsaitində öz əksini tapmışdır. "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" (2000), M.Füzulinin "Hədiqətüs-şüəda" əsəri (2002), "XVI əsr Azərbaycan tərcümə abidəsi Şühədanamə" (2003), Şirazinin "Gülşəni-raz" tərcüməsi (2004), Əhmədinin "Əsrarnamə tərcüməsi" (2005), A.Bakıxanovun "Riyazülqüds" əsəri klassik tərcümə nümunəsi kimi" (2006), Həzinin "Hədisi-ərbəin" tərcüməsi" (2008), XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüttəbir" (2011) monoqrafiyaları, eləcə də Möhsün Nəsirinin "Lisanüt-teyr" (2001), Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" (2005), "Şeyx Səfi təzkirəsi" (2006) və başqa kitabları Azərbaycan ədəbiyyatşünasları və dilçiləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Alim bir sıra beynəlxalq elmi konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Məqalələri Tehran, Kabil, Sankt-Peterburq, Kazan, Ankara, Konya şəhərlərində nəşr olunan elmi toplularda çap edilmişdir. Tərtibçisi olduğu "Nizami: İncilər" kitabı Türkiyədə, "Farsca əlyazmalar kataloqu" kitabı İranda, "Şühədanamə" monoqrafiyası isə Almaniyada nəşr olunmuşdur.

Mən Möhsün müəllimin məruzələrində, çıxışlarında, ümumən nitqində aydın təzahür edən iki cəhəti xüsusi vurğulamaq istəyirəm. Birincisi, bu nitqin dilimizin zənginliyi baxımından çox dolğun və eyni zamanda çox səlist, dürüst, dəqiq olmasıdır. İkincisi də bu səlisliyin, dürüstlüyün içində bəzən gizlənən, bəzən açıq görünən yumor hissidir.

Bu günədək M.Nağısoylunun 300-dən artıq elmi və elmi-kütləvi məqaləsi işıq üzü görüb. Fars, rus dillərini sərbəst bilir. 1967-1970, 1972-1977 və 1982-1986-cı illərdə Əfqanıstanda fars dili tərcüməçisi kimi fəaliyyət göstərib. Fars dilindən 5 kitabı dilimizə tərcümə edib. Onun elmi rəhbərliyi ilə 18 nəfər dissertant fəlsəfə doktorluğu dissertasiyası müdafiə edib.

AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdindəki ixtisaslaşdırılmış müdafiə Şurasının və Əlyazmalar İnstitutundakı birdəfəlik müdafiə şurasının, Nazirlər Kabineti yanında Terminologiya Komitəsinin üzvüdür.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin və AMEA-nın Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunub.

Xalqın dilinə sevgi, bəlkə də bütün sevgilərin əsasıdır. Elm, bilik o qədər böyük həzz mənbəyidir ki, o insana hər şeyi - fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir. Elmi məsələlər nə qədər dərin və genişdirsə, onun əməli səmərəsi bir o qədər böyük olur.

Ömür yolunu ümid yoluna bənzədirlər. Möhsün müəllim bu yolu qəlbinin işığı, gözünün nuru ilə işıqlandırır. Bu işıq, bu nur onun mehriban çöhrəsindən həm doğmalarının, həm də onu əhatə edənlərin ürəyinə düşür.

Möhsün Nağısoylunun 50 illik alimlik fəaliyyətini dəyərləndirmək üçün milli elmi-filoloji kontekst bir qədər dar müstəvidir. Onun elmi fəaiyyəti bütövlükdə ötən əsrin 70-ci illərindən üzü bəri Azərbaycan ictimai humanitar düşüncəsi ilə bağlıdır. Alim unikal elmi təfəkkürü dilçilik və tərcüməçiliyin fakt və sənədlərinə quru, sxolastik ədəbi keçmiş kimi yanaşmamış, onları daim müasir çağdaş milli problemlərlə əlaqələndirmişdir. Ona görə də Möhsün Nağısoylunun tədqiqatlarında tərcüməçilik geniş milli-ictimai məzmun kəsb edir. Yaradıcılıq enerjisinin böyük hissəsini dilçilik elminin gələcəyinə həsr edən alim müasir bədii tərcümənin düzgün istiqamətdə inkişafına öz tədqiqatları ilə böyük yardım etmişdir.

M.Nağısoylu məşğul olduğu bütün sahələrin elmi-professionalizm səviyyəsini daim təmin etmişdir. O, məsuliyyətli professor, AMEA-nın müxbir üzvü titullarının şərəf və ləyaqətini özünün bütün elmi və ictimai fəaliyyətilə doğrultmuşdur.

Alimin ən gözəl əsəri onun övladlarıdır - deyənlər yanılmırlar. Professor M.Nağısoylunun ailəsində tərbiyə alıb, boya-başa çatan iki oğul, bir qız övladı da bu gün həm valideyninə, həm də Vətəninə öyüncdür. Bu uşaqların hamısı ziyalıdır. Ancaq heç kəs elmdən, məişət əndişələrindən söz açmır, onlar daha çox keçən günlərin uşaqlıq xatirələrilə ovunurlar.

Deyirlər, dünya elmin nuru ilə ziyalanar, əqildən qüdrət alar, mənəvi dayaqlar üzərində möhkəmlənər. Bu xoşbəxt insan sevgi yolunu tutub həm öyrənir, həm də öyrədir. Yaxşılığını heç kəsdən əsirgəməyən, heç kimə pislik arzulamayan 70 yaşlı görkəmli alim Möhsün Nağısoylunun həyat və yaradıcılığını coşqun bir dənizə bənzətsək bizim dediklərimiz dəryadan bir damlaydı.

Biz görkəmli bir ziyalı haqqında çox şey demək istədik! Deyə bilmədik... Sadəcə o dərinliklərə baş vurmağa gücümüz çatmadı.

Çalışdıq oxuculara işıqlı bir ünvan göstərək.

Tanrı bütün aydınlarımızı qorusun!

**Fizuli MUSTAFAYEV,**
*filologiya üzrə fəlsəfə doktoru*